# FƏLSƏFƏ

## FƏLSƏFİ POEZİYAMIZIN EZOTERİK MÜSTƏVİSİNDƏKİ VAHİD HƏYAT KONSEPSİYASI

**M.Ə.ABDULLAYEVA**
***Bakı Dövlət Universiteti***
***matanat.a@hot mail.com***

*Məqalədə göstərilir ki, insan ağlı vahidliyi birbaşa, atributlarsız qavraya bilmədiyinə görə onu hissələrə, fraqmentlərə parçalayır. Ruhi-mənəvi təkamül keçmiş insanlar aləmi, kainatı supramental (ali) səviyyədə dərk etməyə nail olurlar. Tədqiqat Nizami, Nəsimi və Füzulinin əsərləri əsasında aparılmışdır.*

İnsan beyni potensial məhdud qavrama qabiliyyətinə malik olduğuna görə aləmi fraqmentar dərk edir, Vahid Həyatı insan özünün beyin «süzgəcindən» keçirərək saysız-hesabsız miqdarda tərkib hissələrinə bölür. Bizim nöqteyi-nəzərimiz üçün sanki o, bütün obrazların, formaların, fərqlərin və s. və i.a. vasitəsilə təzahür olunur, daha doğrusu, «biz özümüzün adi qavrama mexanizminə, beynimizin, sinir sistemimizin qəbuletmə strukturlarına bağlandığımız üçün aldadılaraq və daima «ölçü səhvlərinə» məruz qalaraq, Vahidə ayrı-ayrı sonsuz xırda hissəciklərin və fraqmentlərin toplusu kimi baxırıq, belə ki bizim beynimiz özünün məhdud qavrama qabiliyyətinə əsasən mühakimə yürüdüb nəticə çıxarır» (1, 57). Mövcud olanlar, əslində, Vahid Həyat adlandırılan sonsuz ümmanın tərkibidir, möhtəviyyatıdır. Vahidliyi dərk edən insan ümmanın həyatı ilə var olan damla kimidir. «Həqiqət ondan ibarətdir ki, bütün insanların mövcudluğu vəhdətdədir. Biz hamımız vəhdətdə mövcuduq, eyni enerjidən istifadə edirik. Hamımız, sadəcə, enerji kütləsinin vahidləriyik – ora-bura vurnuxan neytronlarıq. Ulduzların enerjisi bizə nüfuz edərək bədənimizin enerji sisteminin tərkib hissəsinə çevrilir» (1, 51). Bütün yaradılışın enerji səviyyəsində bir-birilə bağlılığı, bir-birinə nüfuzu, qarşılıqlı keçidi, həm də bütöv, bölünməz tamlığı Vahid Həyatın daxili strukturudur. Belə struktur universal enerji konsepsiyasını yaradır ki, bu da ümumvəhdət fəlsəfəsinin əsasında durur. Universal enerji konsepsiyasının rasional elmi izahını 1970-ci ildə italiyalı fizik Qabriyel Venesianonun «Kvant simlər nəzəriyyəsi» adlanan kəşfi verir. Bu kəşfə görə, kainatda bütün fundamental zərrəciklər və onların bir-birinə fundamental təsiri ultramikroskopik kvant simlərin titrəyişi və bir-birinə təsiri ilə yaranır. Belə kvant simlərin kəşf olunması materiyanın, zaman və məkanın strukturuna daha dərin nəzər salmaq zərurətini yaradır və kainatın vəhdətinin mistik sirrinə elmi izah verir. Klassik poeziya nümayəndələri bu məsələnin üstündən adlayıb keçməyiblər, bəsirət gözü ilə görünən həyatın lətif enerji strukturunun vahidliyini təsvir etmək üçün onlar

«yarın zülfü», «yarın saçı», «yarın hörükləri» kimi metaforik ifadələrdən istifadə ediblər. Nəsimi belə deyir:

*Vəhdətin sirri, qırılmaz silsilə yar zülfüdür,*
*Mən bu zülfə bağlıyam, etməz rəha*[*]*, xoşdur mənə*

(12, 414).

***

*Ənbərfəşan saçınla şol günü bulmuşam ki,*
*Aləmdə adı anın la-ibtida əzəldir*

(12, 189).

Həyata dar prizmadan baxmaq tərzi bu gün də aktuallığını qoruyub saxlayır. Hər bir elm sahəsinin mütəxəssisləri ixtisaslaşarkən özlərini böyük bir tamın kiçik bir «küncünə» yönəldirlər. Bu zaman elmlərin sintezi əvəzinə elmlərin bir-birindən təcridi, diferensiasiyası baş verir. «Detallara vardıqca alimlər «səmanın» daha xırda parçasını görürlər. Onların öz dili yaranır ki, digərləri belə dili başa düşmür. Tədqiqatlar «bir yerdə sayır», kiçik nailiyyətlər «böyük ad ilə təqdim olunur, şəxsi düşüncə həqiqətdən qiymətli sayılmağa başlayır. Bununla yanaşı, dünyanı vahidgörmə konsepsiyasının yaranmasına ehtiyac getdikcə artır» (17). Fəlsəfi poeziyanın ezoterik müstəvisindəki biliklər, informasiyalar dünyanı, həyatı vahidgörmə konsepsiyasının bariz nümunəsidir. Belə biliklərə yiyələndikcə «yavaş-yavaş aydın olur ki, həyatın müxtəlifliyinin təməlində vahidlik durur və idrakımızın düzgünlüyü, həqiqiliyi və dəqiqliyi özümüzü həmin vahidliklə nə dərəcədə eyniləşdirməyimizlə bağlıdır» (3).

Vahid olan aləmi fraqmentar, «yəni zəif görməyimiz hər bir şeyin özəyindəki mütləq xoşbəxtliyi bizdən pərdələyir. Bu, bizim hisslərimizin solğunluğudur, onlar (hisslərimiz – **M.A**) hələ çox da yetkin olmadığına görə sonsuz vahidliyi qavraya bilmir» (16, 252). İnsanın ağlı vahidliyi birbaşa, atributlarsız qavraya bilmir, çünki o, nitq, ağıl və intellekt çərçivələrindən kənardır. Aləmin vahidliyini supramental görmə ilə qavramaq mümkündür. «Supramental görmə qlobal görmədir. Ağıl kiçik fraqmentləri seçərək onları bir-birinə qarşı qoyur. Fövqəladə şüur hər şeyi vahid şüada birləşdirir, lakin onun şüası başlanğıcını bir nöqtədən götürür, buna görə o, hər şeyi yalnız özünün nəzər-nöqtəsindən görür. Fövqəlşüur bəsirət digər nəzər-nöqtələrin istisna edilməsi, yaxud da birləşdirilməsi hesabına unitar və universaldır. Supramental, yaxud da Ali Şüur isə nəinki aləmi, bütün şeyləri və bütün varlıqları birləşdirərək və heç nəyi bir-birinə qarşı qoymadan onların vahidliyini qavrayır, həm də hər şeyin, hər varlığın mövqeyini görür. Bu, hansısa mərkəzi bir nöqtədən yox, miriad nöqtələrdən doğan baxış prizmasıdır: Vahid və sonsuz çox olan bir baxışdır» (16, 221). Bu, çoxluq formasında təzahür edən Vahidin əhatəli dərk olunmasının təsviridir. Vahidin çoxluqda (kəsrətdə) isbatı haqqında Nəsimi belə deyir:

*Bavücudəm vəhdəti kəsrətdə isbat eyləyim,*
*Musayəm anəstünara, nur ilə Tur olmuşam.*

(12, 154)

«Kün-fəkanın çünki əsli zat imiş // Cümlə əşya vəhdətə ayat imiş» (12, 314) deyən Nəsimi təzahür olan hər bir şeyin Vəhdətin əlaməti olduğunu və hər şeyin əslinin ondan gəldiyini söyləyir. «... Əşyanın varlığının özü ona, bir olan Xaliqə

---

[*] rəha – qurtulma.

şəhadətdir və bu, hər şeyin içində Allahın olması deyil, hər yaradılışın bir (vahid – M.A) Yaradıcısı olduğu deməkdir. (Hər şey Onu həmd ilə təsbih edər, lakin siz onların təsbihini anlamırsınız)) (Quran 17:44)» (5, 82).

Nəsimi özünün aləmi çoxluq kimi qəbul etmək dünyagörüşündən qurtularaq Vəhdətə yetişməsi haqqında belə deyir:

*Çün aləmin Nəsimi qurtuldu kəsrətindən,*
*Vəhdətdə gör bəqasın bimüddəti – əcəldir.*

(12, 189)

Mənadan başıçıxma, sonsuz vahidliyi qavrayabilmə, supramental, qlobal görmə kimi xarakterizə olunan bəsirətlik, yaxud yüksək ruhani səviyyə, kamillik mərtəbəsi yalnız eşq körpüsündən keçənlərin, eşqin ali səviyyəsinə yetişənlərin nəsibidir. «İlahi varlığın bir parçası olan insan öz zatına eşqin cazibəsi ilə yaxınlaşa bilər. Bu halda surət zata qovuşaraq vəhdət təşkil edir. Vəhdətin yaranması üçün isə insanın kamilləşməsi vacib şərtlərdəndir. Deməli, kamil insanın surəti Allahın surəti, eşqi isə Allah eşqidir» (8, 76). Eşqin «mehini» belə duymayan, vəhdəti heç cür təsəvvür edə bilməz. «Eşq həzz gətirən xüsusi bir ağrıdır, bunu ürəyində hiss edən insan sirr aça bilər. O görər ki, hər şey Həqiqətdir və hər şey Ona aparır. Həqiqətdən başqa heç nə yoxdur. Bunu dərk edən insan ram olur, o, Həqiqət ümmanına qərq olur» (18, 17). Nəsimi belə deyir:

*«Qul hüvəllahu əhəd» dəryası qərq etdi bizi,*
*Vəhdətin mülkündə olduq fərdü vahid, hökmran.*

(12, 374)

Yaxşı-pis, xeyir-şər yalnız zahiri fərqlərdir, batində isə hər şey birdir.

*Pis ilə yaxşıdakı fərq, fərqi – zahirdir,*
*Görünməmiş ola məyub* xilqətin əsəri.* (7, 190)

Hər şeyin Allahın – Vahidin təcəllisi olduğunu bilən Nəsimi «Vəhdət dəmində dərvişü sultan çü bir imiş» (12, 83) deyərək bunun mərifət qazanmışların səviyyəsi olduğunu vurğulayır:

*Arif qatında mədhü zəmm* bir əsl imiş, sən arif ol,*
*Gör kim, necə hər natiqin dilində göftar olmuşam.*

(2, 155)

Vahidliyin bölünməzlik konsepsiyasını dərk edə bilməyənlər həyat hadisələrinin baş verməsində iki fərqli qüvvənin – Xeyirin və Şərin əsil təyinatını anlaya bilməzlər.

Həyata qlobal baxış prizmasından baxdıqda, görmək olar ki, mütləq xeyir var, mütləq şər isə yoxdur. Pis dəyişilir, pis yaxşının dəyişilmiş, korlanmış aspektidir. «Şər nədir, özünün aclığından və susuzluğundan əziyyət çəkib əldən düşmüş xeyirdir. Həqiqətən, xeyir aclıq çəkəndə qida dalınca qaranlıq mağaraya da girər, susuzluqdan yananda isə o, hətta ölü su içməyə də hazırdır» (6, 66). Xeyirin içindəki boşluqda şər yaranır, xeyirin zəifləməsi ilə, büdrəməsi ilə şər peyda olmağa başlayır. Deməli, şər mövcudluqda yox, mövcudsuzluqda, boşluqda əmələ gəlir. Korlanmış aspekti insan özü yaradır, daha doğrusu, insanın qaranlıq, boşluq aspektindən şər yaranır. «Dünyanın ancaq əksliklərin vəhdəti kimi ağ və qaranın, xeyir və şərin, əql və nadanlığın, ideya və materiyanın, harmoniya və

---

* Məyub – nöqsanlı, eyibli
* Mədhü zəmm – tərif və tənqid

xaosun, hərəkət və sükunətin, iradə və süstlüyün mübarizəsi, vəhdəti və qarşılıqlı keçidi kimi təqdim etmək təşəbbüsləri az olmayıb. Lakin ikinci tərəfin yoxluğundan çıxış edən və dünyanı ancaq birincinin qradasiyası kimi izah edən təlimlər də mövcuddur. Ancaq Xeyir var. Şər xeyirin yoxluğudur. Ancaq İşıq var. Qaranlıq işığın yoxluğudur. Ancaq Əql var. Nadanlıq əqlin yoxluğudur…» (10, 62). Bütün yoxluqlar insan üçün şərdir. Ən böyük yoxluq Allah sevgisinin olmamasıdır, qalan yoxluqlar buradan rişə taparaq inkişaf edib böyüyür. «Çaşanlar qaranlıqdadır. Qaranlıq yalnız işığın yoxluğu deməkdir» (10, 38). İnsan pozitivi – var olanı, yaxud, neqativi – yox olanı seçə bilər, seçim insanın iradəsi ilə bağlıdır. İradənin təkanverici qüvvəsi, hərəkət mənbəyi sevgidir, daha yüksək, kamil səviyyədə isə eşqdir. Bütün müsbət olan şeylər Allahın əsil xassəsi olan eşqdəndir. Mənfi keyfiyyətlər sevginin yoxluğundan və yoxluqdan yaranan qorxudandır.

Seyid Əzim Şirvaninin (1835-1888) insandakı qorxu hissinə verdiyi qiymət maraqlıdır:

*Ey oğul, nifrət eylə vahimədən,*
*Vahimə şumdur, müxərribi-tən.*
*Vahimə olsa şəxsə müstövli,*
*Eylər ani həlak öz hövli.*
*Qüvveyi-vahimə şəyatindir,*
*Vahimə cinniyani-bidindir.* (20, 48)

İnsan təbiətindəki müsbət cəhətlər sevginin təzahürünün variasiyalarıdır, mənfiliklər isə qorxunun. Ona görə də, bunlardan biri artanda o biri, uyğun olaraq, azalır və əksinə. «Ey insan! Sənə yetişən hər bir yaxşılıq Allahdandır, sənə üz verən hər bir pislik isə özündəndir…» (Quran, 4:79). Nizami Gəncəvi də bu fikri davam etdirir:

*Yaxşıdan, pisdən nə iş görsən,*
*Pisi özündən gör, yaxşını Allahdan.* (14, 527)

Şər, yaxud xeyir seçimi insanın öz iradəsi ilə baş verir. «İngilis filosofu Riçard Suinbern göstərir ki, şər problemi çox böyük çətinliklər yaratsa da, mürəkkəb olsa da, həll ediləndir. «Prinsipcə məsələnin həlli belə olmalıdır. Ətrafda gördüyümüz bütün şər məntiqi cəhətdən böyük xeyirin zəruri şərtidir; başqa sözlə, böyük xeyir şər olmadan və yaxud, heç olmasa, şərin başlaması üçün təbii imkan olmadan meydana gələ bilməz. Bu müddəa geniş kontekstdə baxılarsa, daha aydın olur. Belə ki, insanlar iradə azadlığına o mənada malik olurlar ki, özlərinin seçiminə təsir edən səbəblərdən asılı olmayaraq, xeyir və şər arasında seçim edə bilirlər. Beləliklə, şüurlu canlı varlıq kimi insanlar öz xeyir və şər hərəkətlərinin qaynağı, necə deyərlər, mini yaradıcısı olurlar; bu da onlara imkan verir ki, həm özlərini, həm də başqalarını xeyir və yaxud şərə təhrik etsin. Yaxşı ki, insanlar belə məsuliyyətə malikdir. Lakin aydındır ki, əgər onlar məsuliyyətə və seçim azadlığına malikdirlərsə, deməli, şüurlu olaraq şər iş törədir və yaxud özünün laqeydliyi ilə ətrafda şərin yaranmasına imkan verir. Ona görə də əgər azad iradə bir nemətdirsə, onda burada konkret forma kəsb edən şər ehtimalı var. Düşünürəm ki, şər probleminin istənilən mümkün həlli məhz buradadır» (15, 474-475).

Adi insan şüuru aləmi çoxluq formasında qavrayır, lakin hər şeyin əlaqəsini, bir-birinə bağlılığını görə bilmir, çoxluğun arxasında Vahidi görmək

imkanından məhrum olduğuna görə onları bir-birinə qarşı qoyur. Xeyir-şər, yaxşı-pis, ədalət-ədalətsizlik qütbləri onları müəyyənləşdirib qiymət verən insanların baxış prizmasından asılı olaraq yerlərini dəyişə bilər. Hər bir cəzanın içində mükafat və mükafatın içində cəza ola bilər. Nizami «Leyli və Məcnun» poemasında belə deyir: «Rast gəldiyin hər yaxşıya, pisə // Nəzər salsan, görərsən, işin xeyrinədir // O inciyə ki, ehtiyac duyursan // Diqqət yetirsən, tapılmasa, yaxşıdır // Bir çox qərəz var ki, göz qabağındadır // Onun gizli qalması insanın xeyrinə olardı // Kimi qaçaqaçdadır, kimi «dayan-dayanda» // Heç kəs bilmir ki, məsləhət hansındadır» (13, 61). Sonra Nizami aydınlaşdırır ki, «qeyb kələfinin ucu itdiyinə» görə, yəni insanlar surət aləminə qapanıb qeybi unutduqlarına görə nadanlığa yuvarlanıb hadisələrin məğzində duran həqiqi səbəbləri görə bilmirlər. Ancaq hər sirrin açarı var, hər hadisənin kökündə nadan üçün görünməz səbəb var. İrfan sahiblərinin dünyagörüşündə hər bir şər, əslində, daha böyük şəri dəf etməyə yönəldilmiş bir qüvvədir.

*Allahın təqdirincə qeyb etdiyiniz şeylər,*
*Qətiyyətlə bilin ki, bir bəlanı dəf edər.*

(1, 10928)

Deməк, şərlə xeyir potensial ərəzlərdir, yalnız bir-birinin müqabilində təzahür olunan keyfiyyətlərdir. Ariflər məqamında onlar eyni bir ideyaya xidmət edir, bir ağanın müxtəlif funksiyalar daşıyan iki quludur.

Ezoterik düşüncə sahibləri əkslikləri fərqləndirmək yox, onların arxasında cilvələnən tövhidi görmək dünyagörüşünə önəlir. Hər şeydə Allahın iradəsini görənlər heç bir şeydə eyib axtarmırlar. Nadanlığı dərin olan insan fərqlərə vararaq hər şeydə eyib axtaran olur, yəni şər yönümlü olur. C.Rumi belə deyir:

*Xalq işini yaxşı bilər, əbləh isə eyb axtarar,*
*Nöqsan gəzməz əsli təmiz gövhər olan ər oğlu ər.*

(12, 435)

Sədi Şirazi yazır: «Sədaqət əhlinin səmimiyyəti üzdə də, dalda da eyni olar, naəhl adamlar isə üzdə sənə qurban olar, dalda isə eyib tutar.

*Hər kim sənə özgənin eybini dedi, bişək*
*Sənin də hər eybini başqasına deyəcək».*

(19, 80)

Şərq mistisizminin görkəmli nümayəndəsi Cəlaləddin Rumi insanların eyiblərini gizlətməyi, üzə vurmamağı – daxilən böyük və müdrik insan olmağı məsləhət görərək belə deyir: «Başqalarının qüsurunu örtməkdə gecə kimi ol!»

Xeyirlə şərin, pislə yaxşının vahidliyini ağılla dərk etmək mümkün deyil. İnsan özündə və başqalarında İlahi nur tapa bilərsə, hər şeyin məğzində durmuş İlahi iradəni aşkarlaya bilərsə, o zaman xeyirlə şərin vəhdətini də dərk edə bilər. «Şər də İlahi mövcudluqdan öz mənbəyini götürür, lakin o bizə ona görə şər kimi görünür ki, biz onu tam yox, yalnız bir hissəsini görürük və dərk edirik. Tamı görmək və anlamaqla şər xeyirə çevrilib yox olar» (4). Əgər biz dünyaya baxışımızda yalnız xeyirin, yaxşının real olduğu və gördüyümüz hər şeyin mahiyyətcə xeyirin təhriflənmiş forması olduğu həqiqətindən çıxış etsək və dünyaya belə bir prizmadan baxa bilsək, onda böyük qüvvə sahibi olarıq. «Belə qabiliyyətə malik olan insan ətraf aləmin çoxcəhətliyindən, müxtəlifliyindən uzaqlaşaraq çoxluğun arxasında hər şeyi özündə toplayan Vəhdəti görə bilər» (4). İnsan xeyir və şərin təsirinə məruz qaldıqda müəyyən təcrübə qazanıb şərə fraqmentar yox, geniş

prizmadan baxaraq onu böyük bir planın tərkib hissəsi kimi görərsə, vəhdət ideyasına çata bilər. «İnsan vəhdaniyyəti dərk edəndə və hər şeyin arxasında vahidliyi görəndə onun dünyagörüşü və şeylərə münasibəti də dəyişir. O daha dostuna demir: «Səni sevirəm, çünki mənim dostumsan»; O deyir: «Mən səni sevirəm, çünki sən də mənsən». O, mistiklərin dediyi kimi deyir: «Səhvi sənmi etmisən, ya mən etmişəm, fərqi yoxdur. Vacib odur ki, səhv düzəldilməlidir » (9, 123).

Hər bir insan özünə və əhatəsində olanlara belə prizmadan baxa bilərsə, dünyanın gözəlliyini görmə imkanı əldə edər, Vahid Həyat konsepsiyasını dərk edə bilər.

## ƏDƏBİYYAT


1. Ayni Mehmet Ali. Tasavvuf tarixi. İstanbul: Çağaloğlu, 2000, 344 s.
2. Azərbaycan klassik ədəbiyyatı kitabxanası: 20 cilddə, VII c. Məhəmməd Füzuli. Bakı: Elm, 1986, 486 s.
3. Бейли Алиса. Эзотерическая психология. http: // www.indostan. rubiblioteka 7_1723_o.html.zip.Win RAR
4. Бердяев Н. Философия свободного духа. http: // www.vehi.net | berdyaev | fsduha | o.html
5. Bünyadzadə K. Təsəvvüf fəlsəfəsinin ilk mənbələri. Sərrac Tusinin «Əl-Lümə» əsəri. Bakı: Qamma servis, 2003, 230 s.
6. Джебран Халиль Джебран. Мятежные души. Москва: Фаир-Пресс, 2002, 208 с.
7. Füzuli. Əsərləri: 5 cilddə, IV c. Bakı: Azərb. SSR EA, 1961, 391 s.
8. Həsənoğlu Ə. Nəsimi «Ənəlhəq»qinin kökləri. Bakı: Nurlan, 2004, 99 s.
9. Хазрат Инаят Хан. Учение суфиев. Москва: Сфера, 1998, 343 с.
10. Xəlilov S. İşraqilik və müasir fəlsəfi təlimlər. Bakı: Azərbaycan Universiteti, 2005, 99 s.
11. Xulusi Axmed. Allax. Bakı: Adiloğlu, 2006, 223 s.
12. Nəsimi. Seçilmiş əsərləri. Bakı: Maarif, 1985, 438 s.
13. Nizami Gəncəvi. Leyli və Məcnun (Filoloji tərcümə). Bakı: Elm, 1981, 259 s.
14. Nizami Gəncəvi. İsgəndərnamə (Filoloji tərcümə). Bakı: Elm, 1983, 622 s.
15. Rüstəmov Y. Fəlsəfənin əsasları. Bakı: Elm, 2004, 498 s.
16. Сатпрем. Шри Ауробиндо, или путешествие сознания. Нижний Новгород: Деком, 2006, 317 с.
17. Сахаревич В. Союз духа и разума. http: || lib.ru | urikova | saharewich.txt
18. Шейх Музаффер Озак Аль Джеррахи Аль Халвети. Любовь – это вино. М.: Сампо, 2001, 93 с
19. Şirazi S. Gülüstan. Bakı: Dinin fəxri, 2001, 254 s.
20. Şirvani S.Ə. Rəbiül-ətfal. Bakı: Avrasiya-Press, 2005, 288 s.


## КОНЦЕПЦИЯ ЕДИНОЙ ЖИЗНИ В ЭЗОТЕРИЧЕСКОМ ПЛАСТУ ФИЛОСОФСКОЙ ПОЭЗИИ

**М.А.АБДУЛЛАЕВА**

### РЕЗЮМЕ

Человеческий мозг по мере своего потенциально ограниченного мышления, воспринимает внешний мир фрагментарно и пропуская через свою призму ума, делит его на бесконечно мелкие частицы. Но все существующее, на самом деле, является составной частью бесконечного Океана, под названием Единая Жизнь. Высокодуховный человек, т.е. человек, прошедший ряд стадий духовной эволюции, несет в себе знания о Единой Жизни и ощущает себя и частицей Океана, и самим Океаном.

Представители азербайджанской философской поэзии, такие как: Низами, Насими и Физули являются блестящим примером этому.

## CONCEPTION OF COMMONLIFE IN ESOTERIC LAYER OF PHILOSOPHIC POETRY

M.A.ABDULLAYEVA

### SUMMARY

A human brain, to a certain extent of its potentially organic thinking, perceives the outward world fragmentarily and letting it in through its own prism of mind divides it into infinitely small parts. However, everything that exists, in fact, is the component of the infinite Ocean under the name of Common Life. A highly spiritual man, the man who has passed through a number of stages of spiritual evolutions bears the knowledge about Common Life and thinks of himself as both a part of the Ocean and the whole Ocean.

The representatives of Azerbaijan philosophic poetry, such as Nizami, Nasimi and Fuzuli are brilliant examples in that respect.